# YURD ÜÇÜN, EL ÜÇÜN YAŞAYAN ELMİN

***Şəhid çavuş Elmin Əvəz oğlu Mirzəyevin (20 fevral 1995-ci il Xocavənd rayonunun Əmirallar kəndi - 2 oktyabr 2020-ci il Füzuli rayonu) əziz xatirəsinə həsr olunur.***



*(Əvvəli ötən saylarımızda)*

Lakin həyatda bəzən hər şey bizim istədiyimiz kimi olmur. Həyatın özünə görə qaydası, qanunu var və tələb etdiyi şey gərək yerinə yetirilsin. Qismətə baxın ki, fələk öz hökmünü oktyabrın 2-də - Elminin doğma yurdu Xocavəndin işğal günündə verdi. O gün Elminin Füzuli rayonunda iştirak etdiyi döyüş onun son döyüşü kimi qismətinə yazıldı. Elmin 2 oktyabr 2020-ci ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhidlik zirvəsini fəth etdi! Xocavəndin işğal günündə şəhid olsa da, şəhadəti ilə bizə qəm-kədərlə birgə fəxr, qürur və heç zaman yad tapdağında qalmayacaq olan gözəl Qarabağımızı verdi, qaytardı. Elmin bizim alnımızdan qaçqınlıq ləkəsini, damğasını canı, qanı bahasına götürdü. Gənc yaşında öz həyatını, varlığını, şirin canını vətən uğrunda qurban versə də, bizə miras kimi 2 gül balasını, ailəsini, sevdiklərini, dildən-dilə gəzən, dillər əzbəri olan qəhrəmanlıq dastanını və ən əsası canından çox sevib canını sevə-sevə fəda etdiyi, qurban verdiyi Vətənini qoyub getdi...

Elmin şəhadətindən sonra cənab Ali Baş Komandanımız İlham Əliyev tərəfindən "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

İndi isə qəhrəmanımızın şərəfli həyatından söz açdığım bu dastanda son olaraq bir haşiyə çıxmaq istəyirəm. Bu həm də dastanın yazılma prosesini də özündə ehtiva edir. 7 dekabr 2022-ci ildə Xocavənd rayon Mədəniyyət Evində şəhidlərimizə həsr etdiyim "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabıma təqdimat keçirildiyi zaman tədbirdən qabaq Şəhidlər Xiyabanını ziyarət edəndə qəhrəmanımızın atası Əvəz dayı ilə tanış oldum. O, mənə və atama tanışlıq verərək bildirdi ki, Xocavənd Rayon Polis Şöbəsində çalışdığı illər ərzində həmin şöbədə atamla və dayılarımla birgə çalışmışdır. Mən Əvəz dayıya Elmin qardaşım haqqında məqalə yazmaqla bağlı söz verdim. Əvəz dayı xahiş etdi ki, məqalədə onun oğluna həsr etdiyi şeirlərini və bir neçə ürək sözlərini də əlavə edim. Əvəz dayı bildirdi ki, Elmin şəhid olduqdan sonra ona və ailəsinə şəhid ailəsi kimi dövlət və icra hakimiyyəti böyük hörmət və qayğı ilə yanaşmış, Mirzəyevlər ailəsinin dərdlərinə və problemlərinə işıq tutub tez bir zamanda həlli üçün çalışmışdır. Əvəz dayı Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı çox hörmətli Eyvaz Hüseynovdan da razılığını bildirdi. Kitabda Elmin qardaşım haqqında şeirimin və hazırladığım vikipediya səhifəsinin çap olunduğu üçün mənə təşəkkürünü bildirdi. Mən isə təşəkkürə ehtiyac olmadığını bildirərək Əvəz dayıya gözəl sözləri üçün minnətdarlığımı bildirdim.

Nə qədər ki Azərbaycan var, Azərbaycanın şəhidlərə hörmətlə, şəhid ailələrinə qayğıyla, diqqətlə yanaşan övladları var, nə qədər ki biz varıq, Elminlər ölməz, Şəhidlər ölməz, Vətən heç zaman bölünməz! Allahdan Şəhidimiz Elmin də daxil olmaqla bütün Şəhidlərimizə rəhmət diləyir, məqalənin sonunda Əvəz dayı və mənim tərəfimdən Elmin qardaşım haqqında yazılmış şeirləri diqqətinizə çatdırıram.



### FƏXR EDİR YURDUM SƏNLƏ

***44 günlük Vətən müharibəsində şücaət göstərən şəhid oğlum Mirzəyev Elminə həsr edirəm***

İgid, qəhrəman oğlum,
Sən döyüşə atıldın.
Düşmənləri məhv edib,
Bağırlarını yardın.
Fəxr edir yurdum sənlə!

Qəhrəmanlıq göstərdin,
Başımızı ucaltdın.
Bu xalqı, bu milləti,
Dünyaya sən tanıtdın,
Fəxr edir yurdum sənlə!

İgidliyinlə, oğul,
Bizi də sən ucaltdın.
Bayrağımızı hər an,
Zirvələrə qaldırdın.
Fəxr edir yurdum sənlə!

Doğma Vətən, el üçün,
Düşmən ilə döyüşdün.
Ata, ananı, xalqı,
Bu milləti düşündün.
Fəxr edir yurdum sənlə!

Vətən nədir deyənə,
Vətən - Anadır dedin,
Qeyrət nədir deyənə,
Qeyrət - Atadır dedin.
Fəxr edir yurdum sənlə!

Demədin, atam harda,
Anam harada qaldı?
Şəhidlərin qisasın,
Şanlı Ordumuz aldı.
Fəxr edir yurdum sənlə!

Qırx dörd günlük döyüşdə,
Döyüşdü qardaşın da.
Hər ikiniz oldunuz,
Hər an haqq savaşında.
Fəxr edir yurdum sənlə!

Azad oldu Qarabağ,
Elminim şəhid oldu.
Orxanımsa qayıtdı,
Elminsiz dünyam soldu.
Fəxr edir yurdum sənlə!

Tanrı Baş Komandanı,
Ordumuzu qorusun.
Sənsiz dözmürəm Elmin,
Məkanın cənnət olsun.
Fəxr edir yurdum sənlə!

**ƏVƏZ MİRZƏYEV**

*Şəhid atası, Qarabağ qazisi*

*şəhid Elminin dilindən atası*
*Əvəz Mirzəyevin şeiri*

Elminin gəldi səsi,
Qələbənin təntənəsi.
Aldım sonuncu nəfəsi,
Onda bildim mən Şəhidəm,
Anladım ki mən Şəhidəm.

* * *

Qayıt oğul,
Bir gecəlik görüm get.
Sən gedəndən od tutmuşam,
Sönüm, get.
Neçə vaxtdır sarılıram daşına,
Son bir dəfə gəl başına dönüm sənin.

### QİSAS CƏNGAVƏRİ

*Vətən müharibəsi şəhidi Elmin Əvəz oğlu Mirzəyevin nurlu xatirəsinə (20.02.1995-ci il Xocavənd rayonu Əmirallar kəndi - 02.10.2020-ci il Füzuli rayonu)*

Qisas cəngavəri, sülhün əsgəri,
Fikri Vətən, Qarabağ olan Elmin.
Oldun sərkərdəsi, igidi, nəri,
Bu dövlətin, bu yurdun, bu millətin.

Qisas məskənin oldu Xocavəndin,
Güc verdi sənə ruhu ərənlərin,
Sonda Sən Qarabağı azad etdin,
Zəfərdir yurda verdiyin sərvətin.

Şəhid olub verdin Zəfər xəbərin,
Sən Xocavəndimin işğal günündə.
Baş əyirik biz, sənin əzizlərin,
Qəhrəmanlıq abidənin önündə.

Qanla yazıldı Qarabağ əsərin,
Nurlu Şəhadətin, parlaq Zəfərin.
Şəhidlər ölməz deyir Peyğəmbər, din,
Sən əbədiyaşarsan, şəhid Elmin.

18.05.2021

***Sevindik NƏSİBOĞLU***
***10-cu sinif şagirdi, şair-publisist,***
***AJB üzvü***
***31.07.2023***